# "Milli Konstitusiyamız suverenliyin təzahürü, dövlətçiliyin qarantı kimi" adlı dəyirmi masa keçirilib

**Müstəqil və suveren dövlətə sahib olmaq, milli-mənəvi dəyərlərə, həmrəylik, humanizm, ədalət və qanunun aliliyi prinsiplərinə əsaslanan inkişaf etmiş cəmiyyət qurmaq yüzillər boyu Azərbaycan xalqının ən böyük arzusu olmuşdur. Tarixin müxtəlif mərhələlərində kənar müdaxilələrə, məhrumiyyətlərə baxmayaraq, xalqımız milli kimliyini, mübarizə ruhunu qoruyub saxlamış, öz ideallarına həmişə sadiq qalmışdır.**



1995-ci il noyabrın 12-də qəbul olunmuş Azərbaycan Respublikasının ilk Konstitusiyası ümummilli lider Heydər Əliyevin dövlətimizə ən qiymətli mənəvi miraslarındandır. Ulu Öndər bir zamanlar Əsas Qanunumuzun onilliklər, əsrlər ərzində Azərbaycanın həyatında oynayacağı mühüm rola ümidini, əminliyini belə ifadə etmişdir: "Əminəm ki, Azərbaycanın ilk demokratik Konstitusiyası xalqımızın demokratiya, milli dövlətçilik yolu ilə getməsini təmin edəcək və gələcək nəsillərə sivilizasiyalı, yüksək səviyyəli, dünya demokratiyasında özünəməxsus yer tutan müstəqil Azərbaycan dövlətini miras qoyacaq".

Konstitusiyamızın qəbul edilməsinin 30-cu və Vətən müharibəsində qələbəmizin 5-ci ildönümünü nəzərə alaraq Prezident İlham Əliyevin 28 dekabr 2024-cü il tarixli Sərəncamı ilə 2025-ci ilin ölkəmizdə "Konstitusiya və Suverenlik İli" elan olunması müasir Azərbaycan dövlətçiliyinin inkişafında mühüm əhəmiyyət kəsb edən tarixi bir hadisədir. Bu qərar milli suverenliyimizin və hüquqi dəyərlərimizin təbliği baxımından tarixi bir addım olmaqla yanaşı, hüquqi dövlətçilik və suverenlik dəyərlərinin möhkəmləndirilməsi baxımından da xüsusi əhəmiyyətə malikdir. Bu münasibətlə Azərbaycan Hərb Tarixi Muzeyində "Konstitusiya və Suverenlik İli" nə həsr olunmuş "Milli Konustitusiyamız suverenliyin təzahürü, dövlətçiliyin qarantı kimi" adlı dəyirmi masa keçirilib.

Öncə Azərbaycan Ordusunun yaradıcısı, ulu öndər Heydər Əliyevin, birinci və ikinci Vətən müharibələrində müstəqilliyimiz, ərazi bütövlüyümüz və suverenliyimiz uğrunda şəhid olmuş həmvətənlərimizin ruhu bir dəqiqəlik sükutla yad edilib, dövlət himni səsləndirilib.

Seminarda Azərbaycan Hərb Tarixi Muzeyinin şəxsi heyəti, AMEA-nın A.A.Bakıxanov adına Tarix və Etnologiya İnstitutunun "Şimali Azərbaycan XIX- XX əsrin əvvəlləri tarixi" şöbəsinin müdiri, tarix üzrə fəlsəfə doktoru, professor Hacı Həsənov, həmin şöbənin aparıcı elmi işçiləri, tarix üzrə fəlsəfə doktorları, dosentlər Zeynəb Qafarova, Elmira Əliyeva, Xuraman Vəliyeva iştirak ediblər.

Azərbaycan Hərb Tarixi Muzeyinin rəisi e.o.polkovnik Elşad Pənahov çıxış edərək qeyd edib ki, XX əsrin sonlarında yenidən öz tarixi müstəqilliyini qazanan Azərbaycan həm də onun itirilməsi təhlükəsi ilə üzləşdi:

"Ölkədə hakimiyyət böhranı 1993-cü ilin iyununda kulminasiya həddinə çatdı, xaos və anarxiya respublikanı bürüdü. Vətəndaş müharibəsi dərəcəsinə yüksəlmiş qarşıdurma nəinki dövlət müstəqilliyimizi, hətta milli varlığımızı belə birbaşa hədəfə aldı.

Azərbaycan torpaqlarının Ermənistan silahlı qüvvələri tərəfindən davamlı işğalı, getdikcə gərginləşən siyasi vəziyyət, əhalinin gündən-günə ağırlaşan sosial durumu ölkəni bu bəlalardan xilas edə biləcək, xalqı öz arxasınca aparmağa qadir liderə ehtiyac olduğunu şərtləndirirdi. Cəmiyyətin bütün təbəqələri əmin idi ki, müstəqilliyini yenicə bərpa etmiş ölkəni düşdüyü ağır və dözülməz vəziyyətdən çıxarmağa qadir yeganə şəxsiyyət məhz Heydər Əliyevdir".

Polkovnik bildirib ki, Heydər Əliyev milli dövlətçiliyimizin konsepsiyasını yaratdı. Bütün maneələrə baxmayaraq, ən qısa müddətdə ölkədə ictimai-siyasi sabitlik bərpa edildi, respublikamız vətəndaş müharibəsi və parçalanma təhlükəsindən xilas oldu:

"Ulu Öndərin bilavasitə rəhbərliyi ilə hazırlanmış və 1995-ci il noyabrın 12-də qəbul olunmuş Azərbaycan Respublikasının ilk Konstitusiyası ölkəmizdə genişmiqyaslı qanunvericilik islahatlarının əsasını təşkil etdi. Bu Konstitusiya dövlətimizin müstəqilliyinin, suverenliyinin və ərazi bütövlüyünün qorunması, hüquqi, dünyəvi dövlət quruculuğu, vətəndaşlarımızın layiqli həyat səviyyəsinin, dünya ölkələri ilə dostluq və əmin-amanlıq şəraitində əməkdaşlığın təmin edilməsi kimi ali niyyətlərin həyata keçirilməsi üçün mühüm qanunvericilik bazası rolunu oynamışdır".



Muzeyin rəisi müstəqil Azərbaycan Respublikasının ilk Konstitusiyasının qəbulunun dövlətçilik tarixində mühüm hadisə olduğunu, ölkəmizdə müasir dövlət və vətəndaş cəmiyyəti quruculuğu üçün böyük yol açdığını, insan hüquq və azadlıqlarının həyata keçirilməsinə zəmin yaratmaqla ölkə həyatının bütün sahələrinin inkişafına təkan verdiyini diqqətə çatdırıb:

"Sənəd, sözün əsl mənasında, ölkənin Əsas Qanununa çevrilərək dövlət və cəmiyyət həyatının bütün sahələrini əhatə edən genişmiqyaslı qanunvericilik və institusional islahatların əsası kimi çıxış etmişdir. Dövlət başçısının həyata keçirdiyi təxirəsalınmaz sosial-iqtisadi, siyasi və mənəvi tədbirlərin nəticəsi kimi, bütün siyasi və diplomatik vasitələrin işə salınması ilə 1994-cü ilin may ayında cəbhədə həyati əhəmiyyət kəsb edən atəşkəs əldə edildi. Atəşkəsin böyük önəmi onda idi ki, məhz bu müqavilədən sonra ölkəmizi inkişaf yoluna çıxaran, iqtisadi potensialı hesabına dünya bazarına daxil olmağa şərait yaradan beynəlxalq müqavilələr, razılaşmalar əldə edildi. Ölkə daxilində yaranmış sabitlikdən, həmçinin Azərbaycana münasibətdə beynəlxalq aləmdə artan inam və maraqdan istifadə edərək 1994-cü ilin sentyabrında "Əsrin müqaviləsi" imzalandı. Bununla ulu öndər Heydər Əliyevin iqtisadi inkişaf konsepsiyasının əsasını təşkil edən neft strategiyasının həyata keçirilməsinə zəmin yarandı. Heydər Əliyevin rəhbərliyi ilə respublikamız qədim İpək Yolunun bərpası, Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum neft və qaz xətlərinin çəkilişi kimi qlobal layihələrin təşəbbüskarına və fəal iştirakçısına çevrildi".

Polkovnik Elşad Pənahov bildirib ki, müstəqil Azərbaycanın ilk Konstitusiyasının preambulasında Azərbaycanın dövlət müstəqilliyinin, suverenliyinin və ərazi bütövlüyünün qorunması başlıca niyyətlərdən biri kimi bəyan edilib:

"Lakin Ermənistanın Azərbaycana qarşı təcavüzü nəticəsində torpaqlarımızın 20 faizinin 30 ilə yaxın işğal altında qalması Azərbaycan Respublikasının suveren hüquqlarının həmin ərazilərdə tətbiqinə imkan vermədi. Ermənistanın işğalçılıq siyasətinə son qoyulması və ölkəmizin ərazi bütövlüyünün, suverenliyinin bərpa edilməsi Azərbaycan xalqının milli ideyaşının əsas məqsədlərindən birinə çevrildi, cəmiyyətimizin bütün resursları bu taleyüklü vəzifənin həllinə yönəldildi. Eyni zamanda ölkə rəhbərliyi tərəfindən ordu quruculuğu ilə bağlı islahatlara start verilməsi ilə Silahlı Qüvvələrin formalaşdırılması, Azərbaycanın milli mənafelərini qorumağa qadir olan nizami ordunun yaradılması, torpaqlarımızın müdafiə olunması ilə bağlı mühüm addımlar atılmağa başlandı. Silahlı Qüvvələrin yenidən və elmi əsaslarla qurulması üçün öncə dövlət rəhbərliyi tərəfindən orduda baş alıb gedən neqativ halların aradan qaldırılması, mənəvi-psixoloji iqlimin sağlamlaşdırılması üçün ardıcıl tədbirlər görüldü. Hərbi intizamın, vahid rəhbərlik prinsipinin möhkəmləndirilməsi, döyüş hazırlığı problemlərinə və təlim prosesinə getdikcə daha çox diqqət yetirilməsi, ordunun maddi-texniki təminatının ilbəil yüksəldilməsi nəticəsində Silahlı Qüvvələrdə köklü dəyişikliklər baş verdi".

Muzeyin rəisi böyük öndərin arzularını onun layiqli davamçısı Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin gerçəkləşdirdiyini deyib. Qeyd edib ki, müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusu Vətən müharibəsi zamanı Ermənistan ordusu üzərində tarixi Qələbə qazandı və ölkəmizin ərazi bütövlüyü təmin olundu.

Seminarda Azərbaycan Hərb Tarixi Muzeyinin tədqiqatçı-baş elmi işçisi, t.ü.f.d. Vahid İsmayılov "Azərbaycan Konstitusiyasının inkişaf tarixi" haqqında məruzə ilə çıxış edərək bildirib ki, müasir ictimai həyatda Konstitusiyanın mühüm əhəmiyyəti vardır:

"Onun əsas məzmunu və mahiyyəti vətəndaş, cəmiyyət, dövlət arasında münasibətlərin, eləcə də ictimai quruluşun əsaslarının, dövlət hakimiyyəti təşkilinin prinsip və formalarının tənzimlənməsinə yönəldilmişdir. Konstitusiya siyasi və hüquqi sistemin özülünü təşkil edir, vətəndaşların bərabərliyini,əsas insan hüquq və azadlıqlarını təsbit edir, dövlət onun vəzifəli şəxsləri və nümayəndələrinin fəaliyyətini məhdudlaşdırır. Onun müddəaların qəbulu, ardıcıllıqla həyata keçirilməsi ictimai münasibətlərin sabitliyini, müəyyənliyini və inkişaını təmin edir".

Daha sonra elmi seminarda AMEA-nın A.A.Bakıxanov adına Tarix və Etnologiya İnstitutunun professoru Hacı Həsənov "Çağdaş Azərbaycanın Konstitusiyası" adlı məruzə ilə çıxışında diqqətə çatdırıb ki, Azərbaycan Respublikasının Konstitusiyası hüquqi əsasları müəyyən etməklə, eyni zamanda milli birliyin, dövlət suverenliyinin və ərazi bütövlüyünün hüquqi təminatçısı kimi çıxış edir:

"Bu ali sənəd hər bir vətəndaşın dövlətə bağlılığının, dövlətin isə vətəndaş qarşısında məsuliyyətinin bərqərar olunmasında mühüm rol oynayır. Dövlət başçısı cənab İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən uzaqgörən və ardıcıl siyasi kurs sayəsində dövlətçilik ənənələrimiz möhkəmlənib, hüquqi sabitlik və idarəetmə dayanıqlılığı təmin edilib. Bütün bu hüquqi və siyasi təməl, Azərbaycanın suveren hüquqlarını qorumağa və xüsusilə də 44 günlük Vətən müharibəsi zamanı öz ərazi bütövlüyünü təmin etmək üçün qətiyyətli addımlar atmağa imkan yaradıb.

Məruzələrdən sonra elmi seminar iştirakçıları mövzu ətrafında müzakirələr aparıb.

*Gülşəndə MAMEDOVA*
*Azərbaycan Hərb Tarixi Muzeyinin tədqiqatçı-elmi işçisi*